# GÖYLƏR QARTAL YERİDİR

## *Təyyarə bələdçisi Hökümə Əliyevanın xatirəsinə*



*Rafiq MUSA*

Yarı mürgülü göylər
Yuxusundan oyandı.
"Bakı-Qroznı"reysi
Bakıdan havalandı.

Yerlərini tutmuşdu
Sərnişinlər birtəhər.
Nə səfər fərqlənirdi,
Nə də açılan səhər.

Bakıda hava yaxşı,
Bir az xəzri əsirdi.
Sevənlər-sevilənlər
Görüşə tələsirdi.

İş dalınca gedənlər,
Yaxşı-pisi seçirdi.
Yerdəki işlərini
Göydə ölçüb-biçirdi.

Nə qalıbdır çatmağa,
Budur, şəhərin özü.
Göylər niyə qarışır,
Niyə tökülür gözü?

Yoxdurmu bir yiyəsi?
Göylər qalıbdır viran.
Buludlar üz-gözünü,
Turşudubdur nə yaman.

Hələ, tam çəkilməyib
Gecənin qaranlığı.
Bəd xəbərə köklənir
Səhərin toranlığı.

Nə biləydik, nələr var
Göylərin "əmmasında".
Kimləri itirmədik
Təyyarə qəzasında?!

Göylər doldu nə yaman,
Əlçimi qucaq-qucaq.
Göy üzünə nə olub,
Zəhrimarmı yağacaq?

Küləklər də qoşulub
Ünvansız bir axına.
Günəş harda gizlənib,
Niyə gəlmir yaxına?

Buludlara nə oldu?
Hönkür-hönkür ağlayır.
Yerdən gələn bəlaya
Göylər qara bağlayır.

Buludların elə bil
Pozuldur nizamı.
Yerdən uman kəslərin
Göydə ölür gümanı.

Nə oldu birdən-birə,
Təyyarə sözə baxmır.
Ölüm "meydan sulayır",
Dərəyə-düzə baxmır.

Çöldən gələn bu nə səs?
Hər kəsi fikir əyir.
Bu səs təsadüfdümü?
Xəyanətə bənzəyir.

Uca bilmir təyyarə,
Buludlardan sürüşür.
Hökümənin yadına
Olub-keçənlər düşür.

Fikirləri qarışıq,
Ötənləri o, anır.
Yerdən göyə baxardı,
İndi yerə boylanır.

O məktəb illərini,
Xatırladı anbaan.
O qayğısız günləri
Alıb, aparıb zaman.

Bu da universitet,
Sevinci başdan aşır.
Hər bir işdə birinci,
Bu yer ona yaraçır.

O, gizlədə bilmədi
Kimsədən həvəsini.
Bələdçi qız sevirdi,
Seçdiyi peşəsini.

Qız xəyaldan ayıldı,
Qışqırırdı dördyanı.
Göylərdəmi bitəcək,
Həyatının son anı!

Hökümə düşünürdü:
Varmı işin əlacı?
Bu həyat necə şirin,
Bu həyat necə acı.

Niyə gəldi bu bəla,
Kimə neyləmişdiniz?
O tərəf, odlu dağlar,
Bu tərəf, dərdli dəniz.

Kömək umur Allahdan
Narahat sərnişinlər.
Üz-üzə dayanıbdlr
Göy üzündə xeyir, şər.

Ümidlər azaldıqca,
Gözlərə zülmət çökür.
Qonaqları gözləyən,
Yerdəkilər nə çəkir?!

Hər kəsin ürəyinə
Qara fikirlər damır.
Göydəki haqsızlığa,
Yerdəkilər inanmır.

Təyyarədən xəbər yox,
Gözü yolda qalan var.
Bacısını gözləyən,
Oğul yola salan var

Yerdəkilər harayda,
Hər kəs batıb qan-tərə.
Yerrdəkilər susurlar,
Ümid qalıb göylərə.

Əlaqələr kəsilib
Kimsə "işə salammır".
Göydəkilər neyləsin,
Yerdən cavab alammır.

"Hər şey yaxşı olacaq",
Söyləsə də Hökümə.
Kimsə bilmir Tanrının
Son qərarı, hökmü nə!

Hər kəs yaxşı bilir ki,
Zaman onlara yükdür.
Amma ki, pilotlara
İnamları böyükdür.

Az da olsa, yenə də
Yaşamağa ümid var.
İqor, Aleksandıra,
Kimlər etməz etibar?

Hökümə yaxşı bilir,
Öz hökmü var hər anın.
Tanrı özü yar olsun,
Yerdə-göydə olanın.

Hər bir kəsin fikiri,
Başqasına deyil sirr.
Dərdləri bir olsa da,
Yüz ünvana tələsir.

Bələdçi fikirlidi:
-Birdən-birə nə oldu?
Yerdən xəbər gəlməyir
Hər kəsin gözü doldu

Sən mərdanə dayandın,
İçindəydi göz yaşın.
Səni çəkindirmədi
Yerlə göyün savaşı.

Səndemə, köklənibmiş
Bəxt ulduzun dərd-qəmə.
Sənin kişi qeyrətin
Bəlli oldu aləmə.

Arzuların,istəyin,
Elə bil, bəndə düşdü.
Sənin bəxtin, qismətin
Niyə kəməndə düşdü?

Biz neyləyə bilərdik?
Sizinki belə gəldi.
Haqsızlığın əlindən,
Haqlılar dilə gəldi.

İki kəlmə sözünlə,
Arzulara boy atdın.
"Hər şey yaxşı olacaq!"
Ümidini yaşatdın.

Sözünə dəyər verdin,
Bu- tərəzi, bu- çəki.
Çətin işdir yaşatmaq,
Yaşamağa nə var ki!

Səni dinləyənləri
Az da olsa yaşatdın.
Hərə bir cür yaşadı,
Sən də belə yaşadın.

Sinə gərdin çətinə,
İşin olmadı asan.
Belə də olmalıydı,
Axı, Azərbaycanlısan!

"Hər şey yaxşı olacaq"
Bu səs Haqqın səsiydi.
Sağ qalacaq kəslərin
Həyat möcüzəsiydi.

Söylədiyin sözlərdə
Ümid qaynadı, daşdı.
Hər kəs sənin sözünü
Yaşamağa çalışdı.



"Hər şey yaxşı olacaq"
Söyləsən də hər kəsə.
Əli üzülənləri
Sən gətirdin həvəsə.

Bu ölüm karvanında
Olmadı ögey, yadın.
Hər bir kəsin dərdini
Dərdin kimi yaşadın.

Hər kəlmən ümid dolu,
Yaşatmaq həvəsiydi,
Bu, ümid çırağının
Titrəyən şöləsiydi.

Göylərdə bitməmişdi
"Olum-ölüm" savaşın.
Sizlərə qucaq açdı,
Yerdə Qazax qardaşın.

Qorxu nədir bilmədən,
Yola-izə çıxdı o.
Alovlanan yolları,
Sinəsinə sıxdı o.

Qardaşın can yandırdı,
Ram elədi alovu.
Yenidən xatırladıq
Oljas Süleymanovu.

Min olsun bir budağı,
Nə əyilsin, nə sınsın.
Var olsun Qazax xalqı,
Adı ilə yaşasın.

Heç nə unudulmayır,
Dərdin də yeri dolur.
Unudulmur yaxşılıq,
Nadana ibrət olur.

Mərd kişilər tanınıb
Üzünün ağlığıyla.
Yaşasın Qazaq xalqı,
Var olsun varlığıyla.

Zaman gecikdirmədən
Öz sözünü deyəcək.
Yerdəki haqsızlığı
Tanrı götürməyəcək.

Nə olsun çökdü zülmət,
Ömrünün sabahlna.
Ölümüylə yüksəldi
Tanrının dərgahına.

Bu bir alın yazısı,
Yazan beləmi yazmış?
Sən demə mələklərin
Göylərdə sayı azmış.

Əbədiyyət yolunda,
Bir müqəddəs an da var.

Qoy ölüm sevinməsin,
Ölüb, yaşayan da var.

Qaysaq bağlayacaqdır,
Bugünkü acıların.
Səni örnək biləcək,
Qəhraman bacıların.

Kimlər ki, can yandırıb,
Ürək qoysa hər işə
Yaşayacaq xalqının,
Ürəyində həmişə.

Hər şey göz önündədir,
Bu, heç kəsə deyil sirr.
Hər şey aydınlaşacaq,
Tapılacaq müqəssir.

Haqq-ədalət naminə
Nər şey üzə çıxacaq.
Bu işin günahkarı
Cəzasını alacaq.

Sənin sonuncu kəlmən
Göylərdən enməyəcək.
Dar ayaqda hər kəsin,
Harayına yetəcək.

Sözlərində yaşayan
El qızına min əhsən!
Göylərdə olsan belə,
Hər zaman bizimləsən

Tanrının dərgahında
İndi sənin öz yerin.
Göylərin yolayrıcı,
Həsrət yerin, köz yerin.

Yolunu kəsə bilməz
Bundan belə duman, çən.
Dara düşən təntiməz,
Bilirlər ki, göydəsən.

Qəhrəman pilotlarla
Qoşa çəkilir adın.
Sən şərəfli ömrünü
Ləyaqətlə yaşadın.

Sizi tanıyanların
Göylər ocaq-piridi.
Hər vaxt göylərdəsiniz,
Göylər qartal yeridi.

Yaxşılar unudulmur,
Yaddaşı var daşın da.
Yaşadacaq el sizi
Tarixin yaddaşında.

Sizləri tanıyanlar,
Məhəbbətlə anacaq.
Sözə dəyər verənlər
Hər vaxt sizdən yazacaq.

Yüksəldiniz göylərə
Sizlərin hər biriniz.
Səfəriniz bitməyib,
Yenə göylərdəsiniz.

Sizin bəxt ulduzunuz
Göy üzündə yanacaq.
Sizi xatırlayanlar
Göylərə boylanacaq!

***25.12.24***